YAZIÇI MİSSİYASINA YENİ BAXIŞ

XX əsr Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafında böyük xidmətləri olan yazıçı, dramaturq, ictmai xadim, akademik, ədəbiyyatşünas, tənqidçi Mirzə İbrahimovun yaradıcılığı geniş və çoxşaxəlidir. Onun bədii nəsri, dramaturgiyası, ədəbi-tənqidi məqalələri milli bədii düşüncənin böyük bir dövrünün əsas faktlarındandır. Onlarla hekayələrində («Cənub hekayələri» də daxil olmaqla!), «Xosrov Ruzbeh», «Güləbətin», «Gələcək gün», «Böyük dayaq», «Pərvanə» povest və romanlarında, oçerklərində dövrünün ən aktual məsələlərini sənətkarlıqla əks etdirmişdir.

Cənubi Azərbaycanda anadan olaraq uşaq ikən Şimali Azərbaycana gələn M.İbrahimov qəlbində daim bir Cənub nisgili gəzdirmiş və bunu «Gələcək gün», «Cənub hekayələri», «Azad» operasının ssenarisi, onlarla oçerklərində, publisistik, ədəbi-tənqidi yazılarında, bu və ya digər şəkildə təsvir etmişdir. M.İbrahimov yaradıcılığının ən yaxşı səhifələri Cənubi Azərbaycana, xalqın azadlığı, milli kimliyi uğrunda mübarizəsinə həsr olunub. Ancaq bunu da demək lazımdır ki, bu böyük şəxsiyyətin bədii yaradıcılığı, yaradıcılığının ayrı-ayrı problemləri, ictimai fəaliyyəti, ədəbi tənqidi məqalələri və s. haqqında geniş tədqiqat əsərləri yazılmamışdır. Bu araşdırmaların çoxu sovet dövründə dərc olunduğundan görkəmli yazıçı və ictimai xadim gərəkən qiymətini də almamışdır. Lap almış olsa belə, düşünürəm ki, M.İbrahimov elə bir şəxsiyyətdir ki, hər zaman onun əsərləri, ictimai fəaliyyəti ilə bağlı yeni əsərlər yazılmalıdır. «XX əsr Azərbaycan ədəbiyyatı tarixi» (2010-2011) üç cildlik kitabımı çapa hazırlayarkən bir daha M.İbrahimov yaradıcılığını nəzərdən keçirərkən ədəbi düşüncəmiz, elmimiz, ədəbiyyatşünaslığımız sahəsində gördüyü işlərin qiymətini verməyə çalışdım. Bununla belə, Cənubi Azərbaycan hadisələrində çox böyük işlər görmüş, əsərlər yazmış bu böyük şəxsiyyətin yaradıcılığının hələ yetərincə qiymətini almadığını gördüm. Doğrudur, professor Teymur Əhmədovun bu yaxınlarda dərc edilmiş «Akademik Mirzə İbrahimov» (Bakı, «Nurlar», 2015) monoqrafiyası bu sahədə olan boşluğu bir qədər doldurur. Ancaq düşünürəm ki, bütün bunlar azdır, onun yaradıcılığı müxtəlif aspektlərdən yenidən araşdırılmalıdır. Bu mənada tədqiqatçı Qəndab Əliyevanın Mirzə İbrahimov yaradıcılığı ilə bağlı yazdığı bu araşdırma diqqətimi çəkdi. Onun Mirzə İbrahimovun yaradıcılığında Cənubi Azərbaycan mövzusunun işləməsini tamamilə təqdirəlayiq hesab edirəm. Çünki M.İbrahimov yaradıcılığında Cənub mövzusu mühüm yer tutmasına rəğmən, indiyədək bu problem fundamental tədqiqat obyekti olmamışdır.

Q.Əliyeva monoqrafiyasının birinci «Mirzə İbrahimov və Azərbaycan ədəbi, ictimai-siyasi mühiti» fəsilində ədibin ömür yolu və yaradıcılığı həm Cənub, həm də sovet Azərbaycanı ədəbi, ictimai-siyasi mühiti kontekstində araşdırılır. Məlumdur ki, M.İbrahimovun həyatının və fəaliyyətinin bir hissəsi Cənubi Azərbaycanda keçmişdir. Ona görə də onun yaradıcılığında hər iki mühit mühüm rol oynamışdır. Bu baxımdan fəsildə ana xətt kimi Mirzə İbrahimovun fəaliyyətində Cənubi Azərbaycan məsələsinə əsas yer verilməsi də təbiidir. Bu fəsil problemin qoyuluşu, faktların zənginliyi, ədəbi mühitdə M.İbrahimovun rolunun açılması baxımından da diqqət çəkir. Ona görə ki, M.İbrahimov yaradıcılığının və ədəbi fəaliyyəti bütün zənginliyi ilə burada üzə çıxır.

Müəllif ikinci fəsildə problemi yazıçının hekayə və povestlərində araşdırır, «Cənub hekayələri» və povestlərində milli azadlıq ideyalarının inikası və milli kolorit məsələsi qabardılır. Ayrı-ayrı nəsr əsərlərindən örnəklər gətirilməklə qoyulan məsələyə aydınlıq gətirir. Bu fəsil tədqiqatçının müstəqil dəyərləndirmələri ilə diqqəti çəkir. Demək lazımdır ki, tədqiqatçı bu əsərləri yeni ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən dəyərləndirməklə yanaşı, mövcud ədəbi tənqid və ədəbiyyatşünaslığın fikirlərinə də istinadlar edir.

Müəllifin «Gələcək gün» romanına ayrıca bir fəsil həsr etməsi tamamilə yerinə düşür. «M.İbrahimovun «Gələcək gün» romanında həyat həqiqətinin inikası» adlı bu fəsildə tədqiqatçı əsərdəki obraz və süjet xətlərini araşdırır. Bu fəsildə tarixilik prinsipi əsas götürülür. Məşrutə inqilabından başlamış İslam inqilabından sonrakı dövrün ədəbi-kulturoloji özəllikləri təhlilə cəlb olunur. Eyni zamanda, romandakı həyat həqiqətləri, buradakı obrazların prototipləri təhlilə cəlb edilir.

Müəllif yeni dövrdə M.İbrahimov yaradıcılığına tamamilə yeni kontekstdən yanaşır, onun əsərlərini yeni təfəkkür işığında təhlil edərək belə bir nəticəyə gəlir ki, M.İbrahimovun yaradıcılığının dəyərini itirməməsinin səbəblərindən biri də milli mücadilə uğrunda sona qədər sabit və davamlı olmasındadır. O, Cənubi Azərbaycanda ictimai-siyasi proseslərdə iştirak etmək, bu hərəkata ideoloji yön verməklə yanaşı, Milli hökumət süqut etdikdən sonra bu ideyanı müxtəlif forma və məzmunda yaşadan ən böyük ictimai xadimlərdən biri olmuşdur. Hətta Sovet hakimiyyətinin özündə belə Cənubda gedən proseslərə münasibətin kəskin dəyişməsinə rəğmən, M.İbrahimov əsərlərində, məqalələrində və əməli işlərində bu ideyanı ömrünün sonunadək yaşatmışdır. Fikrimcə, ədəbiyyatşünasın bu yanaşması M.İbrahimov yaradıcılığının mahiyyətini tamamilə doğru ifadə edir. Müəllif təqdim etdiyi monoqrafiyada qoyulan problemi düzgün işıqlandıra bilmiş, əldə olan mənbələrə əsaslanaraq konkret nəticələrə gəlmişdir.

Ədəbiyyatşünas Q.Əliyevanın «Mirzə İbrahimovun nəsrində Cənub mövzusu» monoqrafiyası problemin aktuallığı, işlənməsi, konseptuallığı və nəhayət yenilikçi istiqaməti məndə əsər və onun müəllifi haqda müəyyən əminlik yaratdı. Burada xalq taleyini yazan yazıçının Cənub mövzusuna yeni bir baxış ifadə olunur. İnanıram ki, oxucular da eyni əminliklə monoqrafiyanı oxuyub yazıçının nə qədər böyük, milli bir missiyanın öhdəsindən gəldiyini görəcəklər.

Bədirxan ƏHMƏDOV,
filologiya üzrə elmlər doktoru, professor,
Nizami adına Ədəbiyyat İnstitutunun
şöbə müdiri

Kredo 2019.- 14 fevral.- S.1.